DOI:10.30546/gdu.2023.130-136

**UOT:94.**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN QUBERNİYASINDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA DAİR

***İsmayılov Habil Nadir oğlu***
***Gəncə Dövlət Universitetinin dissertantı***

**Xülasə.** *Elmi əsərdə qədim Azərbaycan torpağı olan İrəvan quberniyasında XX əsrin birinci yarısında aqrar münasibətlərin əsas xüsusiyyətləri tədqiq edilmişdir. Məqalədə çoxsaylı tarixi mənbələr, elmi ədəbiyyatlar əsasında bu mərhələdə kənd təsərrüfatında müşahidə edilmiş mühüm inkişaf cəhətləri faktlara istinad edilərək araşdırılmışdır. Əzəli torpağımız olan İrəvan ərazisində ötən əsrin birinci yarısında aqrar sahədə təsərrüfatların təşkilinin səciyyəvi xüsusiyyətləri öyrənilmişdir.*

**Açar sözlər:** Azərbaycan, İrəvan, kənd təsərrüfatı, inzibati idarəetmə, sənaye
**Ключевые слова:** Азербайджан, Иревань, сельское хозяйство, административное управление, промышленность
**Key words:** Azerbaijan, Irevan, agriculture, administrative management, industry

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatının yüksəlişi və xüsusilə əmtəə istehsalının artmasına sənayenin və onunla əlaqədar olaraq şəhərlərin, habelə yol şəbəkələrinin böyük təsiri olmuşdur. Buna görə də Azərbaycanda kənd təsərrüfatında əmtəə və əmtəə-kapitalist istehsalının yüksəlməsi səbəblərini daha dərindən dərk etmək üçün kənd təsərrüfatının yüksəlişinə təkan vermiş bütün başqa səbəblərlə yanaşı, sənayenin müxtəlif sahələrinin inkişafını, şəhərlərin yüksəlişini, kənd təsərrüfatı məhsullarının başlıca istehlakçısı olan şəhər əhalisinin artmasını, habelə kənd təsərrüfatı məhsullarını bazara gətirməkdə əsas vasitə olan nəqliyyatın inkişafı məsələlərini də qeyd etmək lazımdır (2, 15).

XX əsrin əvvəllərində İrəvan Azərbaycanın ən ucqar qərb torpaqlarının bir hissəsini əhatə edirdi. Burada rus işğalından sonrakı dövrdə 1849-cu ildə quberniya üsul idarəsi yaradılmışdır. XIX əsrin 70-8-ci illərində həyata keçirilən sonuncu inzibati dəyişikliklərdən sonra İrəvan quberniyası 7 - İrəvan, Aleksandropol, Eçmiədzin, Nor-Bayazit, Sürməli, Şərur-Dərələyəz, Naxçıvan qəzalarından ibarətdi. Çar hakimiyyət orqanları idarəçilik üsulunu təkmilləşdirmək adı altında zaman-zaman və məqsədyönlü şəkildə ermənilәri bu ərazilərə köçürür, bu ərazilərdə azərbaycanlı əhalinin məskunlaşdığı kəndləri ermənilər yaşayan ərazilrərlə birləşdirmək siyasəti yürüdürdü. Məqsəd regionda azərbaycanlıların sayını və təsir dairəsini azaltmaq, idarəçilik sisteminə erməniləri yerləşdirməklə İrəvanı yavaş-yavaş ermənilәşdirmək olmuşdur.

XX əsrin əvvəllərində əkinçilik Azərbaycan əhalisinin başlıca məşğuliyyəti olub, kənd əhalisinin həyatında mühüm əhəmiyyətə malik idi.

Əkinçiliyin başlıca məhsulları olan buğda, arpa və düyü həm istehsalçı əhalinin öz istehlakı və həm də satış üçün becərilirdi (1, 36).

Azərbaycanın digər ərazilərində olduğu kimi İrəvan quberniyasında da kənd təsərrüfatının inkişafı yerli iqlim xüsusiyyətlərindən, torpağın quruluşundan, coğrafi şəraitdən xeyli dərəcədə asılı idi. Belə ki, yüksək dağlıq ərazilərdə yerləşməsi və yayın aşağı temperaturda keçməsi ilə əlaqədar Nor-Bəyazit (əvvəlki Göyçə) qəzasında taxılçılığı inkişaf etdirmək çox çətin idi. Lakin, burada geniş otlaq sahələrinin və zəngin biçənəklərin mövcud olması heyvandarlığın kənd təsərrüfatının əsas sahəsinə çevrilməsini şərtləndirirdi. Araz vadisində yerləşən İrəvan, Naxçıvan, Eçmiədzin qəzalarında isə yayın mülayim və uzun keçməsi, su ehtiyatının mövcud olması səbəbindən buğda, arpa, darı, düyü kimi taxıl bitkilərinin, su ehtiyatı çatışmasa belə pambıq, tütün, küncüt, gənəgərçək kimi böyük gəlir əldə etməyə imkan verən bitkilərin əkin sahələrinin hərtərəfli inkişafına şərait var idi.

DOI:10.30546/gdu.2023.130-136

Bütün göstərilənləri nəzərə alaraq qeyd etmək lazım gəlir ki, İrəvan quberniyasının Dağlıq və Aran ərazilərində kənd təsərrüfatının inkişafı fərqli xüsusiyyətlər kəsb edir (3, 193).

1910-cu ildə İrəvan quberniyasında taxıl əkinlərinin sahəsi 1909-cu illə müqayisədə 13% azalsa da əldə olunan məhsul əvvəlki illə müqayisədə demək olar ki, eyni olmuşdur. Quberniyada taxıl tədarükünə müxtəlif iqlim təzahürləri – İrəvan qəzasının dağlıq ərazilərində hökm sürən quraqlıq, düzən ərazilərdə ki, daşqınlar, eləcədə Eçmiədzin, Aleksandropol və Naxçıvan qəzalarında tez-tez baş verən doluvurmalar, yeni Bəyazit və Sürməli qəzalarında isə çöl siçanları və digər ziyanvericilərin təsiri olmuşdur. İrəvan quberniyası üzrə düyü xaric digər taxıl məhsullarının istehsalı aşağıdakı cədvəldə verilmişdir:

| Qəzalar | Ç alınıb (pudla) | Toplanıb (pudla) | Orta məhsuldarlıq | |
|---|---|---|---|---|
| | | | 1910 | 1909 |
| İrəvan | 290174 | 1485612 | 5,1 | 5,6 |
| Sürməli | 236979 | 1025252 | 4,3 | 6,1 |
| Eçmiədzin | 352551 | 1604581 | 4,5 | 3,9 |
| Aleksandropol | 808112 | 3464415 | 4,3 | 4,2 |
| Yeni Bəyazit | 704870 | 1830195 | 2,6 | 3,0 |
| Şərur-Dərələyəz | 136261 | 790836 | 5,8 | 3,6 |
| Naxçıvan | 266642 | 1807525 | 6,8 | 3,5 |
| **Cəmi:İrəvan quberniyası üzrə:** | **2795589** | **12008416** | | |

**(Вах: Обзор Эриванской губернии за 1910, Эриван, Типография Эриванского Губернского Правления, 1915, 3 с.)**

Pambıqçılıqla İrəvan quberniyasının əsasən 5 qəzasının əhalisi məşğul olurdu. 1909-cu illə müqayisədə 1910-cu ildə pambıq plantasiyalarının sahəsi 16% artmışdı. Pambıqçılığın miqyasındakı artımın səbəbi pambığa olan böyük tələbat, pambığın qiymətindəki yüksəliş və s. idi. Lakin, 1910-cu ildə 1909-cu ilə nisbətən daha az məhsul tədarük edilmişdi ki, bunun da səbəbi becərmə qaydalarının lazımi səviyyədə olmaması, suvarma suyunun çatışmaması idi. Sürməli və Şərur-Dərələyəzdə həmçinin digər qəzalarda təsadüf olunmayan "xüsusi pambıq xəstəliyi"də müşahidə olunurdu ki, bu da məhsuldarlığın azalmasına öz təsirini göstərmişdi.

1909-cu ildə hər desyatindən 17,6 pud pambıq məhsulu əldə edildiyi halda 1910-cu ildə bu rəqəm hər desyatin üçün 16 pud olmuşdu. Pambığın qiymətinə gəlincə qiymətlər 1909-cu ildə olduğu kimi yüksək olaraq qalmışdı. Belə ki, amerikan sortu pambığın bir pudu 14 rubl, "qara-qoza" adlanan yerli sort pambığın qiyməti isə 10-12 rubl təşkil etmişdir.

| Qəzalar | Pambıq becərilən sahə (desyatinlə) | Əldə olunan təmiz məhsul (pudla) | |
|---|---|---|---|
| | | Amerika sortu | "qara-qoza" |
| İrəvan | 5631 | 115590 | 21100 |
| Sürməli | 6990 | 79450 | 13980 |
| Eçmiədzin | 3334,5 | 41976 | 660 |
| Şərur-Dərələyəz | 4280 | 51360 | - |
| Naxçıvan | 2385 | 37478 | - |
| **Cəmi: İrəvan quberniyası üzrə:** | **22620,5** | **325854** | **35740** |

DOI:10.30546/gdu.2023.130-136

**(Bax: Обзор Эриванской губернии за 1910, Эриван, Типография Эриванского Губернского Правления, 1915, 3 с.)**

Pambıqçılıq kimi üzümçülüklə də quberniyanın əsasən 5 qəzasının - İrəvan, Sürməli, Eçmiədzin, Şərur-Dərələyəz və Naxçıvan əhalisi məşğul olurdu. 1910-cu ildə quberniyaların üzümçülük təsərrüfatlarında məhsuldarlıq kifayət qədər yüksək olmuş, həmçinin məhsulun pudu 50-80 qəpikdən satılmaqla həm də yaxşı gəlir əldə olunmuşdu. Bu dövrdə İrəvan quberniyasında ümumilikdə 9742 desyatin sahədə üzüm becərilmişdir. Bu sahə ilə məşğul olan 17568 sahibkarın üzüm bağlarından ümumilikdə 4759971 pud məhsul əldə edilmişdir **(Обзор Эриванскои губернии за 1910, Эриван, Типография Эриванского Губернского Правления, 1915, 5 с.)**

*İrəvan quberniyası üzrə üzümçülüyün real vəziyyəti aşağıdakı cədvəldə aydın əks olunmuşdur*:

| **Qəzalar** | **Üzüm bağı sahibləri** | **Üzüm plantasiyalarının sahəsi** | **Əldə olunan məhsul(pudla)** |
|---|---|---|---|
| İrəvan | 6832 | 5132 | 2479070 |
| Eçmiədzin | 3970 | 2513 | 1735110 |
| Sürməli | 2191 | 655 | 271679 |
| Şərur-Dərələyəz | 1699 | 455 | 92232 |
| Naxçıvan | 2876 | 993 | 181880 |
| **Cəmi: İrəvan quberniyası üzrə:** | **17568** | **9742** | **4759971** |

İrəvan quberniyasında meyvə bağlarının dəqiq sahəsini müəyyən etmək mümkün olmamışdır. Çünki, burada meyvə ağacları əsasən üzümçülük təsərrüfatı sahibləri tərəfindən öz plantasiyalarını külək və digər kənar təsirlərdən qorumaq məqsədilə təbii müdafiə səddi kimi təsərrüfatların qıraq sərhədlərinə əkilir.

Qışın uzun keçməsi, Naxçıvan qəzasında yazqabağı baş verən güclü küləklərin çiçəkləri tökməsi səbəbindən meyvəçilikdə məhsuldarlıq aşağı olmuşdur. 1910-cu ildə İrəvan quberniyasında ümumi sahəsi təxminən 3819 desyatin olan meyvə bağlarından əldə olunan 82795 pud məhsulun qəzalar üzrə bölgüsü təxmini olaraq aşağıdakı kimi olmuşdur:

| **Qəzalar** | **Meyvə bağlarının sahəsi** | **Əldə olunan məhsul(pudla)** |
|---|---|---|
| İrəvan | 1330 | 23300 |
| Eçmiədzin | 1457 | 21500 |
| Sürməli | 62 | 7105 |
| Şərur,Dərələyəz | 180 | 25040 |
| Naxçıvan | 790 | 3850 |
| **Cəmi: İrəvan quberniyası üzrə:** | **3819** | **82795** |

İrəvan quberniyasında bostançılığın miqyası azdır və kənd təsərrüfatının bu sahəsi yerli əhalinin tələbatını ödəməyə yönəlir. Lakin şəhər mərkəzlərinə yaxın kəndlərdə yaşayan əhalinin bir hissəsi şəhərlərdə asan alıcı tapmaq mümkün olduğu üçün əmtəəlik göy-göyərti və tərəvəz istehsalı ilə də məşğul olur.

DOI:10.30546/gdu.2023.130-136

İrəvan quberniyasında yağ istehsal edən bitkilərin becərilməsi kənd təsərrüfatı sahələri içərisində hələ də özünə yer edə bilməmişdir. Bu sahə yalnız Tiflislə həm sərhəd olan Aleksandropol qəzasında qismən inkişaf edib. Burada ildə təxminən 24283 pud küncüt, gənəgərçək və digər bitki yağları istehsal olunur ki, onun da 15 min pudu Tiflisə daşınır.

Kənd təsərrüfatının daha çox diqqət çəkən sahələrindən biri də çəltikçilikdir. Bu sahə ən çox İrəvan qəzasında inkişaf etmişdir. 1910-cu ildə burada düyü əkinlərinin sahəsi 2625 desyatinə çatırdı. Şərur-Dərələyəzdə 1201 desyatin, Eçmiədzində 373, Sürməlidə 37 desyatin, Naxçıvan qəzasında isə 6 desyatin çəltik sahəsi qeydə alınmışdır. Aşağıda verilən cədvəldən göründüyü kimi, həmin torpaqlarda ümumilikdə 32569 pud çəltik əkildiyi halda 608297 pud düyü əldə olunmuşdur ki, bunu da yüksək hesab etmək olmaz. Məhsulun qənaətbəxş səviyyədə olmaması suvarma suyunun kəskin çatışmazlığı ilə əlaqədardır. Çəltiyin emalı üçün quberniyada 22 zavod fəaliyyət göstərirdi (10, 37-40).

Tütünçülüyə gəlincə quberniyada tütünün Türkiyəli ailələrindən alınan ən aşağı sortları becərilirdi ki, bu məhsullar heç bir tütün fabriki tərəfindən qəbul edilmədiyi üçün yalnız yerli əhali tərəfindən istehlak olunurdu. Tütünçülüklə əsasən İrəvan və Sürməli qəzalarında məşğul olurdular.

1910-cu ildə İrəvan quberniyasının 111 kəndində 174 desyatin torpaqda tütün əkilmişdi. Burada ümumilikdə 1260 tütün plantasiyası fəaliyyət göstərirdi ki, 9116 pud məhsul istehsal olunurdu. Quberniyanın tütün plantasiyalarının sahəsi və əldə olunan məhsul aşağıdakı cədvəldə əks olunub:

| **Qəzalar** | **Tütünçülüklə məşğul olan kəndlərin sayı** | **Tütün plantasiyalarının sayı** | **Tütün plantasiyalarının sahəsi (desyatin)** | **Əldə olunan məhsul(pud)** |
|---|---|---|---|---|
| İrəvan | 43 | 524 | 83 | 3585 |
| Sürməli | 11 | 266 | 84 | 4961 |
| Naxçıvan | 11 | 192 | 3 | 267 |
| Şərur-Dərələyəz | 46 | 278 | 3 | 302 |
| **Cəmi: İrəvan quberniyası üzrə:** | **111** | **1260** | **174** | **9116** |

**Обзор Эриванскои губернии за 1910, Эриван, Типография Эриванского Губернского Правления, 1915, 10 с.**

Ümumiyyətlə, Azərbaycanda xırda tütün təsərrüfatlarının sayca çoxluğuna baxmayaraq, əsas təsərrüfat əməliyyatları iri tütün plantasiyası sahiblərinin əllərində cəmlənmişdi. Bu plantasiyalarda isə əmtəə istehsalı özünün yüksək pilləsində, əmtəə-kapitalist inkişafı yolunda idi.

Rusiyada kəndli islahatı keçirildikdən sonra, çar hökuməti, nəhayət, Cənubi Qafqaz dövlət kəndliləri barəsində islahat keçirmək hazırlığına başladı. Azərbaycan çar Rusiyası tərəfindən işğal edildikdən sonra, dövlət kəndlilərinin icmalıqla istifadəsində olan torpaqlar kənd yığıncağında ayrı-ayrı ailələr arasında vaxtaşırı bölünməyə başladı. Bu bölgüdə ailə üzvlərinin sayı nəzərə alınırdı. Lakin bir qədər sonra, xüsusən XIX yüz illiyin son rübündə, ölkədə sosial-iqtisadi inkişaf ilə əlaqədar torpaqların ayrı-ayrı ailələr arasında bölüşdürülməsi qaydası dəyişdi. Dövlət kəndində baş verən təbəqələşmənin getdikcə sürətlənməsi nəticəsində yoxsullaşmış kəndlilərin torpaqları varlı kəndlilərin əllərində cəmləşməyə başladı. XIX əsrin sonlarında isə bölünməyə əsaslanan kənd icması artıq tam iflas qarşısında idi. Təkcə bütün icmanın deyil, kənddə hakimiyyətdə ələ keçirmiş kənd varlılarının təsiri nəticəsində icma

DOI:10.30546/gdu.2023.130-136

qaydalarına əhəmiyyət verilməyə başladı. Torpaqlar ya çox gec-gec bölüşdürülür, yaxud da heç bölüşdürülmürdü. Bu, onsuzda ağır vəziyyətdə olan kəndli istehsalçıların böyük kütləsinin torpaqdan istifadəsi məsələsini daha da ağırlaşdırdı. Belə vəziyyətə dözməyən dövlət kəndliləri çar idarələrinə torpaq çatışmazlığı, torpağın qeyri-bərabər bölüşdürülməsi, yaxud da heç bölüşdürülməməsi barədə ərizələr yağdırırdılar. Kənddə sosial münasibətlərin kəskinləşməsi çar hökumətini dövlət kəndlilərinin torpaqdan istifadəsi məsələsi ilə məşğul olmağa məcbur etdi (1, 44).

1900-cü il mayın 1-də imperator II Nikolay İrəvan quberniyasının da daxil olduğu "Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlərinin torpaq təminatının mühüm əsasları"nı təsdiq etdi. Bu qanuna görə, torpaq payları onlardan əvvəlki qaydada istifadə edilməklə kənd icmalarına, kəndlərə və yaşayış məntəqələrinə ayrılırdı. Beləliklə, dövlət torpaq mülkiyyətçisi kimi qalırdı, dövlət kəndliləri bu torpaqlardan icmalıqla istifadə etməli, bunun müqabilində dövlətə töycü ödəməli, mükəlləfiyyət daşımalı idilər. Bu töycü 1900-cü il iyunun 12-də məyyənləşdirildi və "Qafqazda xəzinənin xeyrinə toplanan evbaşı mükəlləfiyyətlərin ləğvi və bunun əvəzinə dövlət töycü mükəlləfiyyəti və torpaq vergisi haqqında"qanun verildi. Bu qanun 1901-ci il yanvarın 1-dən qüvvəyə mindi (1, 46).

1909-cu ilin əvvəlində Stolıpin aqrar siyasətinin həyata keçirilməsinin qızğın dövründə Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən Cənubi Qafqaz quberniyaları, o cümlədən Azərbaycan üçün tərtib edilmiş qanun layihəsi yalnız sahibkar torpaqlarda yaşayan kəndlilərə torpaqlarını ödənclə almaq və xüsusi mülkiyyətçilər qrupuna daxil olmaq hüququ verilməsini, kəndlilərin xüsusi mülkiyyətinə keçmiş pay torpağı üçün mülk sahiblərinə dövlət xəzinəsi tərəfindən ildə ümumi ödənc puludan 5 faiz ödənməsi nəzərdə tutulurdu. Rusiyada olduğu kimi, bu, nəğd pulla deyil, beş faizli pul təəhhüdü ilə verilməlidi. Kəndlilər isə dövlət tərəfindən torpaq sahiblərinə verilən pulu faizlə birlikdə 28, 41 və 56 il müddətində xəzinəyə qaytarmalı idilər. Qanun layihəsinə görə, kəndlilər çəmən, otlaq, meşə yerlərindən və su arxlarından ancaq torpaq sahibinin razılığı ilə istifadə edə bilərdilər. Vorontsov-Daşkov tərəfindən tərtib olunan qanun layihəsi 1909-cu il aprelin 2-də canişin şurasının müzakirəsinə verildi. Müzakirələr 1910-cu il mayın 22-nə qədər davam etdi.

Qanun layihəsinin məzmunu ilə tanış olan Azərbaycan torpaq sahiblərinin nümayəndələri canişin idarəsinə öz tənqidi mülahizələrindən ibarət məktublarını göndərmişdilər. Onlar həmin məktublarda kəndlilər tərəfindən torpaqların ödənclə alınması ilə əlaqədar bir çox məsələlərə qarşı çıxırdılar.

Yelizavetpol quberniyası torpaq sahiblərinin nümayəndəsi Fərruxbəy Vəzirov məktubunda ödənc pulunun kənd təsərrüfatı məhsulunun keçən əsrin 60-70-ci illərindəki qiymət ilə müəyyənləşdirilməsinə etiraz edirdi. Bu, yalnız Fərruxbəy Vəzirovun deyil, bütün Azərbaycan torpaq sahiblərinin tələbi idi. Gündən-günə genişlənən kəndli hərəkatı və kəndlilərin narazılığından ehtiyat edən hökumət bu tələblə razılaşmaqdan çəkinməyə məcbur oldu.

Stolıpin aqrar siyasətini müəyyən məhdudluqla özündə əks etdirən canişin layihəsi Dövlət Dumasında təsdiq olunduqdan sonra Dövlət Şurasına təqdim edildi, 1912-ci il dekabrın 19-da Şuranın 36 üzvünün razılığı ilə, heç bir dəyişiklik edilmədən 1912-ci il dekabrın 20-də çar tərəfindən təsdiq edilib qüvvəyə mindi. 1912-ci il 20 dekabr qanunu həmçinin İrəvan quberniyasının Naxçıvan qəzasını da əhatə edirdi (1, 48-50).

Ümumiyyətlə, XX əsrin əvvəllərində kənd təsərrüfatında əmtəə istehsalı aparıcı rol oynadığı bir şəraitdə İrəvan quberniyasında həmin təsərrüfatlar istər-istəməz dar çərçivədə qala bilməzdi. Bu dövrdə onların çoxu, heç olmasa, vergiləri, yaxud ailənin zəruri ehtiyaclarını ödəmək üçün, ailə üzvlərinin yarımac qalmasına baxmayaraq, məhsulun bir hissəsini əmtəə qismində satmalı olurdu. Bundan başqa, həmin təsərrüfatlar ticarət və sələm

DOI:10.30546/gdu.2023.130-136

kapitalının təsiri altına düşür, onların patriarxal özülləri kapitalist ukladının məcburən qəbul edilmiş elementlərini sarsıdırdı. XX əsrin əvvəllərində Azərbaycanın İrəvan quberniyasının müxtəlif bölgələrində kapitalist istehsal münasibətləri, feodal torpaq sahibliyinin qismən qorunub saxlandığı kənd yerlərində isə qolçomaqların və varlı kəndlilərin kapitalist tipli təsərrüfatları ilə yanaşı, möhtəkir-sələmçi kapitalın təsiri altında olan kiçik təsərrüfatlar da mövcud idi. Bütövlükdə götürdükdə isə quberniyanın sosial-iqtisadi strukturunda kapitalist istehsal üsulu inkişaf etməkdə idi.

***Ədəbiyyat***

1.Azərbaycan tarixi. Yedii cilddə. V cild. (1900-1920-ci illər). Bakı, 2008.
2.İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatı. Bakı, 1960.
3.Гасанов Г. Из истории Северо-Азербайджанской деревни в конце XIX-начале XX вв. Баку, 2007.
4.Обзор Эриванской губернии за 1910, Эриван, Типография Эриванского Губернского Правления, 1915.
5.Кавказский календар, Тифлис, Типографил К.П. Козловского, 1907, с. 64, 150-157, 256-319.
6.Кавказский календар, Тифлис, 1909. Типографилканцеллерии наместника Е.И.В. на Кавказе.
7.Кавказский календар, 1916, Тифлис, Типографилканцеллерии наместника Е.И.В. на Кавказе, 1916, 95-134 с.
8.Известия Кавказского отдела Русского географического общества. Т. 17, № 1-5. - Тифлис, 1904.
9.Известия Кавказского отдела императорского русского географического общества, т. XXI, 1911-1912, Тифлис, ТипографилК.П.Козловского, 1910, 355-368 с.
10.Экономический быть государственныхькрестянь северо-восточной части Новобаязет скаго уезда Эриванской губернии. Исследование А.В.Парвицкаго. Тифлис, 1885

## О РАЗВИТИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ИРЕВАНСКОЙ ГУБЕРНИИ В НАЧАЛЕ XX ВЕКА

***Исмаилов Хабиль Надир оглу***

***Резюме***

В научной работе изучены основные черты аграрных отношений в первой половине XX века в Иреванской губернии, являющейся древней землей Азербайджана. В статье на основе многочисленных исторических источников и научной литературы опираясь на многочисленные факты исследованы важные аспекты развития, наблюдаемого в сельском хозяйстве на данном этапе. На территории Иревана, являющейся нашей древней землей, характерные черты организации хозяйства в аграрной сфере изучались в первой половине прошлого века.

## ON THE DEVELOPMENT OF AGRICULTURE IN THE IREVAN PROVINCE AT THE BEGINNING OF THE XX CENTURY

***Ismailov Habil Nadir***

***Summary***

The scientific work studies the main features of agrarian relations in the first half of the 20th century in the Irevan province, which is the ancient land of Azerbaijan. Based on numerous historical sources and scientific literature, based on numerous facts, the article explores important aspects of the development observed in agriculture at this stage. On the

DOI:10.30546/gdu.2023.130-136

territory of Irevan, which is our ancient land, the characteristic features of the organization of the economy in the agrarian sector were studied in the first half of the last century.

***Rəyçi: prof. Mustafayev Camal Mehdi oğlu***
***Azərbaycan tarixi kafedrasının 26 may 2023-cü il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarixi 12 iyun 2023-cü il***